Xalq qəzeti .- 2022.- 13 fevral.

## *Malıbəyli və Quşçuların işğalından 30 il ötür*

# Xocalı soyqırımına meydan açmış müdhiş faciə

***Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə başlamış Dağlıq Qarabağ münaqişəsinin kütləvi faciələrlə nəticələnmiş müdhiş səhifələrindən biri olan Şuşa rayonunun Malıbəylli və Quşçular kəndlərinin əhalisinə hərbi müdaxilə ilə divan tutulmasından 30 il keçir.***



Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Ermənistan Şuşanın Malıbəyli və Quşçular kəndlərində azərbaycanlılara qarşı törədilmiş qətliamlarla bağlı beynəlxalq ictimaiyyətə çağırış etmişdir. Sənəddə bildirilmişdir ki, Şuşanın Malıbəyli və Quşçular kəndlərində ermənilər tərəfindən törədilmiş qətliamlardan 30 il ötür. Tarix boyu Ermənistanın azərbaycanlılara qarşı yürütmüş olduğu etnik təmizləmə və soyqırımı siyasəti dinc əhalinin kütləvi şəkildə qətlə yetirilməsi ilə nəticələnən cinayətlərə səbəb olub. İnsanlıq və bəşəriyyət əleyhinə yönəlmiş bu çirkin siyasətin qurbanlarından biri də Malıbəyli və Quşçular kəndlərində yaşamış dinc azərbaycanlı ailələr olub.

1992-ci il 10–12 fevral tarixlərində erməni silahlı birləşmələri Şuşa rayonunun Malıbəyli, Aşağı Quşçular və Yuxarı Quşçular kəndlərində soyqırımı cinayəti törədərək, aralarında uşaq, qadın və ahıl insanlar olmaqla, 50-yə yaxın dinc azərbaycanlını qətlə yetirib, kəndləri tamamilə yandırıb. Cəzasızlıq mühitindən istifadə edərək erməni silahlı birləşmələri Malıbəyli, Aşağı Quşçular və Yuxarı Quşçular kəndlərindəki qətliamdan sonra da öz çirkin əməllərini davam etdirərək, Qaradağlı, Ağdaban və əsrin ən böyük faciələrindən biri olan Xocalı soyqırımını törətdilər.

1991-ci ilin avqustunda baş vermiş bədnam QKÇP siyasi oyunundan sonra sovet imperiyasının sürətlə iflasa uğraması təcavüzkar Ermənistanın Azərbaycana hərbi müdaxiləsinə geniş meydan açdı. Belə bir şəraitdə Moskvaya mütilik göstərməkdə davam edən Azərbaycan rəhbərliyinin Milli Ordu quruculuğunu gecikdirməsi, ölkədə şiddətlənən siyasi qarşıdurma Dağlıq Qarabağın azərbaycanlılar yaşayan məntəqələrini müstəsna bir laqeydliklə və cinayətkarcasına müdafiəsiz qoydu.

Təpədən dırnağadək silahlanmış, Ermənistandakı və Xankəndindəki hərbi cəbbxananı ələ keçirmiş İrəvan 4 ildən bəri davam edən silahlı ekstremizm və davamlı terror əməllərini ölkəmizə qarşı açıq müharibəyə çevirərək, ilk növbədə, Dağlıq Qarabağdakı soydaşlarımızı doğma məskənlərində soyqırımı və deportasiyaya məruz qoydular. Beləliklə, Xankəndi ətrafındakı Sırxavənd, Umudlu, Meşəli, Cəmilli, Kərkicahan və digər kəndlərdən sonra növbə erməni silahlı quldurlarının Xocalıya hücumunun qarşısını kəsən Malıbəyli və Quşçular kəndlərinə çatdı.

Qarabağın ən iri yaşayış məskənlərindən olan Malıbəyli, Aşağı və Yuxarı Quşçular kəndləri Şuşa rayonunda, Qarabağ silsiləsinin dağətəyi ərazisində, rayon mərkəzindən 14 kilometr şimal-şərqdə, Xankəndi şəhərinin 2,5 kilometrliyində, Ağdam–Şuşa avtomobil yolundan 2 kilometr aralıda yerləşir. Hələ qədimlərdən bu kəndlərdə karvansaralar, əttar, əllaf, baqqal dükanları, aşxanalar, çayxanalar, hamam, məscid, qala divarları, hətta kanalizasiya xətti də var imiş.

Quşçular kəndi isə Şuşa şəhərindən 16 kilometr şimal-şərqdə, Qarabağ silsiləsində, dağətəyi ərazidə, Quşçular çayı sahilində yerləşir. Quşçular oykonimi Qarabağda yaşamış türkdilli quşçu tayfalarının adı ilə bağlıdır. Aşağı və Yuxarı Quşçular yaşayış məntəqələri Malıbəyli kəndi ilə birlikdə xəritədə indiki Xocalı rayonu ərazisində bir adanı xatırladır.

XX əsrin əvvəllərində –1909-cu ildə Qori Seminariyasının məzunu, dövrünün ziyalısı Məmməd Qarayev Malıbəyli kəndində qızlar üçün əyalətdə ilk rus-tatar məktəbi açmışdır. Kəndin şimal-şərqində yaşı 300 ili çoxdan adlamış Səfəvi dövrünün yadigarı olan səkkizguşəli, çatma tağlı, iki günbəzdən və su hovuzundan ibarət olan hamam tikilisi də var idi. Bu kəndlərdə o zaman, təxminən, 4 min nəfərə yaxın əhali yaşayırdı. 1988-ci ildə Xocalıya olduğu kimi bu kəndlərə də Ermənistandan zorla çıxarılmış 1500-ə yaxın köçkün də yerləşmişdi. Burada 2 orta məktəb, kitabxana, mədəniyyət evi, klub, kinoqurğu, məişət evi, poçt-rabitə şöbəsi, ambulatoriya, minarəli məscid, çay daşlarından tikilmiş hamam kompleksi, tunc dövrünə aid kurqanlar var idi.

Qarabağ müharibəsi başlanan andan etibarən bu kəndlər erməni silahlı birləşmələrinin əsas hədəflərinə çevrilmişdi. 1991-ci ilin oktyabr ayından etibarən Malıbəyli tamamilə mühasirədə idi. Fevralın 5-də kəndlərin üstündə uçan bir vertolyot kəndlilərə üzərində yaşayış yerlərini tərk etmək üçün onlara iki gün vaxt verildiyi yazılan bildirişlər payladı. Bölgə 1991-ci ildən mühasirədə olduğu üçün yeganə giriş-çıxış vertolyotla mümkün idi. Şuşaya uçan axırıncı vertolyot yanvarın 28-də ermənilər tərəfindən vuruldu.

Erməni terrorçuları Xocalını işğal etmək üçün, ilk növbədə, Malıbəyli və Quşçular kəndlərini zəbt etməyə qərar vermişdi. Azərbaycan Silahlı Qüvvələrinin Xankəndi şəhərinin düşmən işğalından azad edilməsi üçün təşkil etdiyi pərakəndə, və zəif hücumlara və yaxınlıqda yerləşən erməni kəndlərinə doğru edilən həmlələrə son qoymaq məqsədilə erməni zirehli maşınlarının və ağır artilleriyasının müşayəti ilə Malıbəyli və Quşçular kəndlərinə hücum edildi.

Fevralın 10-da gecə yarısı rus silahlılarının da yardımı ilə erməni silahlı birləşmələri Malıbəyliyə hücum etdilər. Kənddəki qadın və uşaqlar Quşçular kəndinə qaçdılar. Kənddəki evlər yandırıldı. Ümumilikdə isə hər iki kəndin sakinləri səhərə qədər düşmənlə vuruşdu. Yaxınlıqdakı Şuşa və Xocalı şəhərlərinə gedən yollar kəsildiyindən kəndlərə ən yaxın yaşayış məskəni Ağdam rayonunun Abdal - Gülablı kəndləri idi, lakin bu kəndlərə gedən yol ermənilərin məskunlaşdığı kəndlərdən keçirdi.

Qarabağ münaqişəsinin tanınmış tədqiqatçısı, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru Elçin Əhmədov Malıbəyli və Quşçular qətliamlarının təfərrüatları barədə bildirdi:

–1991-ci il oktyabrın sonunda və noyabr ayı ərzində Qarabağın dağlıq hissəsindəki 30-dan çox yaşayış məntəqəsi, o cümlədən Tuğ, Salakətin, İmarət-Qərvənd, Sırxavənd, Meşəli, Cəmilli, Umudlu, Kərkicahan və s. bu kimi digər strateji əhəmiyyətə malik azərbaycanlılar yaşayan kəndlər Ermənistanın silahlı qüvvələri tərəfindən yandırıldı, dağıdıldı və talan edildi. 1992-ci ilin əvvəllərində ermənilər daha dəhşətli cinayətlər törətdilər.

Yanvar ayının 28-də Ağdamdan Şuşaya uçan 27137 saylı, Mİ-8 vertolyot şəhərə çatmamış, yəni, Xəlfəli kəndinin üzərində Xankəndi istiqamətindən ermənilərin raket atəşi ilə partladılmış, nəticədə vertolyotda olan 3 nəfər heyət üzvü və 41 sərnişin faciəli şəkildə həlak olmuşlar. 1992-ci ilin əvvəllərindən başlayaraq Ermənistan ordusu birbirinin ardınca yuxarı Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etdi. Malıbəyli və Quşçular kəndlərinin işğalı isə Xocalı soyqırımına gedən yolun başlanğıcı idi.

1992-ci il fevralın 10-da erməni birləşmiş hərbi hissələri Malıbəyli kəndinə 3 tərəfdən hücuma keçdilər. Malıbəyli və Quşçular kəndlərinin 3 minədək əhalisi düşmən əlinə keçməmək üçün ya Xocalıya, ya da Ağdama doğru hərəkət etməli idi. 3 minlik əhalinin salamat çıxarılmasını cəmi 60 nəfər müdafiə edirdi. Ancaq düşmən Xocalı istiqamətində əhalini qırmaq və girov götürmək üçün güclü hazırlıq işləri görmüş, Ağbulaq və Pircamal kəndləri yaxınlığındakı zirvələrdə mövqe tutaraq əhalinin keçə biləcəyi yolu nəzarətə götürmüşdü. Hücum zamanı 50-dək azərbaycanlı öldürüldü, 100-dən çox insan yaralandı və ya əsir götürüldü.

1992-ci il fevralın 11–12-də Şuşanın Malıbəyli və Quşçular kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə zəbt olundu. Bu qanlı hadisələr keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının iştirakı ilə həyata keçirildi. O zaman təcavüzkar erməni silahlı birləşmələrinin tərkibində Suriya, Livan, ABŞ və Fransadan gəlmiş könüllü ermənilər də qanlı vəhşiliklər törətdilər. Xankəndinin yaxınlığında yerləşən və düşmənə sipər olan bu iki kəndin sakinləri 1988–1992-ci illərdə erməni təcavüzünə qarşı mərdliklə mübarizə apardılar. 30 il əvvəl Ermənistanın törətdiyi bu qətliam– Malıbəyli və Quşçular faciəsi Xocalı soyqırımına gedən yolun başlanğıcı idi.

Xatırladaq ki, Malıbəyli və Quşçular kəndləri o zaman ATƏT-in Qarabağdakı sülhməramlı missiyasının passiv müşahidəsi altında erməni silahlı birləşmələri tərəfindən xüsusi vəhşiliklə ələ keçirilmişdi. Bununla da Şuşa və Xocalı şəhərləri tamamilə blokadaya alınmışdı.

***R.TAHİR,***
***"Xalq qəzeti"***